# ÖLÜMSÜZ BULAQ

dəyərli vətəndaşım
xanım Ədaləti üçün

Qaraköynəklilər ölkəsinin başçıları bir yerə gəldilər:
- Bir yol varmı?
Onlar bu sözə çatana kimi nələr ki etməmişdilər! İllər boyu, uzun gecələri sabaha kimi oturub tədbir tökmüş və yollar aramışdılar. Hər bir tədbiri ən kəsərli bir yol bilmiş, sabah açılar-açılmaz işə başlamış və bütün güclərini bir yerə toplamışdılar. Onların bu çabaları nədən ötrü idi, onlar nə istəyirdilər?
Qızılköynəklilər ölkəsini yox etmək!

Qızılköynəklilər ölkəsinin qorxmaz igidləri yox edilirsə ölkələrini də yox etmək olar düşünmüşdülər. Bunun üçün nə qədər hiylə və aldanışlara əl atmamışdılar ki! Onların igid övladlarını hər cür bəhanələrlə öz ölkələrinə çəkib və öldürmüşdülər. Başqa ölkələrdən düşmənlər basqın edərkən onlarla birləşmək adına onların ən dəyərli döyüşçülərini ön sıralara göndərib və həlak etmişdilər. Döyüş bitər-bitməz verdikləri sözləri danıb və haqqlarını əzməyə başlamışdılar.

Bir zaman elə düşünmüşdülər ki, onların körpə uşaqlarını hələ dil açıb danışmadan öz ölkələrindən qoparıb istədikləri kimi böyütsünlər; onlara öz yurdlarına və dillərinə qarşı təhqir və hətta nifrət duyğuları aşılasınlar; sonra da geri göndərib öz əlləri ilə Qızılköynəklilər ölkəsini öldürsünlər!
Ancaq bu tədbirləri də boşa çıxmışdı. Onların əlində böyüyən, doğma dilini bilməyən bu uşaqlar ölkələrinə qayıtdıqdan sonra o torpağın balaları olduqlarını anlamış və ruhlarında

zəhərlənmiş qürur və mənlik duyğuları yenidən baş qaldırmış və ölkələrini düşmənlər qarşısında qorumağa çalışmışdılar. Qızılköynəklilər ölkəsi aclıq və kütləvi fəlakət önündə diz çöküb boyun əysin deyə onun var yoxunu karvan-karvan talayıb ölkələrinə aparmışdılar.

Dilləri ölərsə ruhları da ölər deyə dillərində danışmağı onlara yasaq etmişdilər. Acı və şən zamanlarında doğma mahnılarını oxumasalar, öz içlərində boğularlar deyə hər bir mahnı oxuyanın dilini kəsmişdilər.

Onların bütün bu çabaları boşa çıxmışdı. Qızılköynəklilər ölkəsinin insanları ağzı qan içində belə boğulmuş səsini mahnı-mahnı oxumuşdu. Boğazı Qaraköynəklilərin pəncəsində sıxılarkən son fəryadını öz dilində bağırmışdı. Hər bir fəlakətə tuş olsa da qürur və mənliyini itirməmişdi. İndi də, Qaraköynəklilər ölkəsinin başçıları açılmaz bir sirr və çözülməz bir məsələ qarşısında qalmışdılar.

Onlar Qızılköynəklilər ölkəsinin yenilməzliyinin səbəbini tapsalar da nə edəcəklərini bilmirdilər. Onlar bilmişdilər ki, o ölkənin yenilməzliyinin səbəbi bir bulaqdır. O bulaq axdıqca o ölkə də yaşayacaqdır. Onlar bunu bilmələrində heç də yanılmamışdılar. Qızılköynəklilərin bütün varlığı bu bulaqdan asılı idi. Harada idi bu bulaq? Kimsə bunu bilmirdi. Bu bulağın sularının səsi gecələri eşidilirdi. Bu sular görünmədən axıb gedirdi. Kənd-kənd, şəhər-şəhər qərib səslərlə dolurdu. Dərin yuxularda olanlar eşidirdilər bu suların səsini. Bu səslərdə Qızılköynəklilər ölkəsinin ən uzaq zamanlardan bəri oxuduğu və hətta çoxdan unutduğu mahnılar vardı. Bu sular axıb keçirdi ruhlardan və onları ulu babalarının odlu nəfəsi və ulu analarının şirin laylasıyla oxşayırdı. Bu səslər onların əzilib qanamış mənliyini sehrili bir məlhəm kimi sarırdı.

Bu sirli bulağı necə tapıb yox etmək olar? Bu mümkün olarsa Qızılköynəklilərin də varlığına son qoymaq mümkündür. Qaraköynəklilər ölkəsinin adamları kənd-kənd, şəhər-şəhər, dağ-dağ, dərə-dərə Qızılköynəklilər ölkəsini arayıb bu bulağı tapa bilməmişdilər. İndi də hamısının son sözü bu olmuşdu:

- Bir yol varmı?

2003. Berlin